# OBRAZLI CİZGİLƏRİN DÜŞÜNDÜRÜCÜLÜYÜ

*Ayxan Rəsulovun yaradıcılığı haqqında düşüncələr....*



**Ziyadxan Əliyev**

Müstəqilliyimizin başlanğıcından bu günümüzə kimi ideologiyasızlıq durumunda gerçəkləşən azad yaradıcılıq prosesinin yaratdığı bədii xaotikliyin "cavabdeh"inin tezliklə tapılacağı sual altında olsa da, onun insanlara nələr bəxş etdiyini arifanə duyanlar, sınaqdan çıxaranlar da az olmayıb. Bu fikir azadlığından faydalananlardan biri də, Azərbaycan Rəssamlar İttifaqının üzvü, "Qobustan" jurnalının bədii redaktoru Ayxan Rəsulovdur, desək, yanılmarıq...

Üçrəngli bayrağımıza yenidən qovuşduğumuz 1991-ci ilin payızında onun cəmisi 18 yaşı vardı. O vaxt məşhur "Əzimzadə məktəbi"nin son kursunda oxuyurdu. Azərbaycan poeziyasında özünəməxsus izi olan şair Adil Rəsulun (1938-1997) və Azərbaycan Milli Ensiklopediyasında çalışan Əxtər xanımın ailəsində dünyaya gələn Ayxan bəlkə də bunun nə demək olduğunu həmyaşıdlarının çoxundan yaxşı başa düşürdü. Dünyaya göz açandan ətrafında daha çox kitab görməyə adət etmiş Ayxanın bu gün çox vaxt "aysberq"ə bənzəyən xarakterinin "xəmiri"nin də elə o vaxtlar kitablar aləmində yoğurulduğunu güman etmək o qədər də çətin deyil. Elə bu gün onun üçün kitabın həyatında hansı yer tutduğunu söyləmək də qənaətimizcə, müşkül məsələ deyil. Yaradıcılığı daha çox ədəbi nümunələrlə bağlı olan Ayxan üçün bu ümmansız sərvət həm də "çörək ağacı"dır, desək, həqiqəti söyləmiş olarıq. Amma yəqin ki, bunun özü də tam və bütöv olmaz. Belə ki, əgər Ayxan bir rəssam olaraq ədəbiyyata yalnız qazanc mənbəyi kimi baxsaydı, bəlkə də bu gün oxuduğunuz yazının obyekti olmazdı. Belə ki, lap əvvəldən bu günə kimi ədəbi nümunələr onun üçün dünyanı dərk etmək üçün bir mənəvi-ruhi vasitə olub, desək, yanılmarıq. O, ruhu ilə səsləşən kitablara illüstrasiyalar çəkəndə özü də mənən rahatlıq tapıb. Çox vaxt ədəbiyyatla təmas ona fikirlərini şərh etmək, tamaşaçıya çatdırmaq və ictimailəşdirmək üçün bir vasitə olub. Bu gün onun yarandığı gündən sənət aləminə mütərəqqi baxışları ilə respublikada ad çıxarmış "Qobustan" jurnalında çalışması da maddiyyatdan çox, mənəviyyatla bağlıdır. Bu jurnala üz tutan müəlliflərin yazılarında çox vaxt başqa nəşrlərdə oxuya bilməyəcəklərini görəndə Ayxan da ruhuna ruh qatır, seçdiyi bədii-yaradıcı yolun düzgünlüyünə inamını artırır...

Ayxan Rəsulovun 1997-ci ildən, yəni, Ə.Hüseynzadə adına Mədəniyyət və İncəsənət Universitetini bitirəndən sonra ərsəyə gətirdiyi əsərləri bütünlükdə "zamanla dialoq" da adlandırmaq olar. Onun gerçəkliyi bədii obrazlar vasitəsilə dərk etməyə çalışması, düşüncələrini obrazlı-fəlsəfi tutumda təqdim etməsi çox vaxt reallıqla irreallığın qovşağının ifadəsi olduğundan tamaşaçı üçün daha çox fikir paralayandır. Odur ki, Ayxanın təqdimatında belə bədii şərh bir qayda olaraq "suallar məcmusu"nu xatırladır. Onlarda ifadə olunanlar təkcə rəssamı əhatə edən gerçəkliyin bədii dərki deyil, bu görüntülər həm də rəssam təxəyyülü ilə yaradılmış fərqli, bəzi hallarda isə onun görmək istədiyi arzuladığı məkan tutumundadır. Burada heç də dünyamız öz ənənəvi-real görkəmini itirməyib. Sadəcə hadisələr və onun iştirakçısı olan insanlar rəssam baxışı-gözü ilə bir qədər "çılpaq", bu vaxta kimi düşmədiyi daha açıq hal-da-vəziyyətdədir. Elə bu səbəbdən həm də qəribəliyə bələnmiş bu görüntülərin müəllifin elə xarakteri kimi "aysberq"liyi duyulmaqdadır...

Ayxan Rəsulov qeyd etdiyimiz bədii məziyyətləri həm ədəbi əsərlərə çəkdiyi çoxsaylı illüstrasiyalarda, həm də müstəqil xarakterli dəzgah qrafikası nümunələrində sərgiləmişdir. Onun "Göyçək Fatma", "Bir parça Vətən", "Doğdu güneş qırmızı", "Xocalı simfoniyası", "Arazımız", "Limanda" və s. kitablara verdiyi qrafik şərhlərdə müəlliflərin sətiraltı "işarə"lərinə fəlsəfi nüfuzetmənin bədii təzahürünü görmək mümkündür. Atası Adil Rəsulun "Limanda" kitabına bədii münasibətində gördüyümüz ağ-qara cizgilərdən "boylanan" görüntülərin adi təsvir çərçivəsinə sığışmadığı kifayət qədər duyulandır. Kitabın "Dünya ilə baş-başa" bölümünə "ayaq" verən rəssam pərvazlanmaq niyyətli-atlant görkəmli insanı kürəyə bağlı təsvir etməklə, ümmansız poeziya dünyasında iz qoymağa çalışan şairin hələ də yaşamağa məhkum olduğu ideoloji mühitin əsiri olduğuna bədii işarə vurmuşdur. Günəşə salam verən ("Salam, Günəş" bölməsi) şairin lirik duyğuları ilə səsləşən bəyaz göyərçinli qızın timsalında isə rəssamın söz xiridarının nikbin ovqatını üzə çıxarmaq istəyi duyulandır. "Yol ayrıcında" yaşananları şair taleyinin təlatümlü durumu ilə əlaqəli təqdim edən Ayxan Rəsulov bölümdəki yaşantı təzadlarına müvafiq görüntü ərsəyə gətirməklə, təsvirin düşündürücülüyünü əldə etmişdir. Onun kitabın "İthaf şeirlər" bölümünə çəkdiyi rəsmdə isə müraciət olunan şəxslərin bədii-mənəvi tutumu - "Alın yazısı" ilə anım yaradacaq ümumiləşdirilmiş portret şəklində, şərti-fəlsəfi biçimdə ifadə olunub. Rəssam təqdimatında "Lirik şeirlər. Nəğmələr" bölümünün "açar" xarakterli rəsmi elə adına müvafiq - romantik-poetik ovqatlıdır. "Poemalar"da oxucunu Simurq quş kimi yananların halını duymağa çalışan düşüncəli gənc qızın, "Publisistika"da kökdən düşdüyünə işarə kimi ağacdan asılı qalan sazın təsvirinin qarşılaması da Adil Rəsulun çoxqatlı poeziyasından şirələndiyindən, onun özü kimi düşündürücü - fikir paralayandır...



**Ayxan Rəsulov**

Ayxanın Nurəngiz Günün "Xocalı simfoniyası" kitabına çəkdiyi rəsmlər adi, görməyə adət etdiyimiz illüstrasiya çərçivəsinə sığışmayan, dəhşətli faciəyə tutulan "bədii güzgü"nün qeyri-adi sərtliyi isə cəlbedici və yaddaqalandır. Onun insan yaşantılarının və bütün baş verənlərə şahidlik edən Qarabağ təbiətinin rəngdən-rəngə düşən mənzərələrinin ilahi mərhəmətinə ümid bəsləyən görkəmində, yaşanan ədalətsizliyin cavabsız qalmamasına rəssam istəyindən qaynaqlanan bədii çağırışda bir vətəndaş etirazı vardır...

Rəssamın şair-yazıçı harayına tapınan bədii tapıntılarının davamını onun dəzgah qrafikası nümunələrində də görmək mümkündür. Onun "Təbiətin edamı", "İtirilmiş vaxtın soraǧında", "Sənət yollarında", "Duyğular", "Gizlənc", "Əkizlər bürcü", Performans", Döyüş", "Epitafiya", "Ovqat", "Nar içrə Azərbaycan" və s. əsərləri bu qəbildəndir. Bu qrafik lövhələrdə Ayxanın kompozisiyaya daxil etdiyi hər bir atributu mənalandırmaq istedadı kifayət qədər duyulandır. Bir qayda olaraq kompozisiyalarının detal yığcamlığına çalışan müəllif, əvəzində onların hər birinin məntiqli və düşündürücü fikir daşıyıcılığına nail olmuşdur. Təbiətə qənim kəsilmiş əli baltalı adamın və kötüklərin ("Təbiətin edamı"), qəribəliklərlə dolu sürrealist məkanın ("İtirilmiş vaxtın soraǧında"), qələmini qayığa çevirib "kağız dənizi"ni dəf etməyə çalışanın ("Sənət yollarında"), şirin röyalardan ayrıla bilməyən gəncin ("Duyğular"), amalı uğrunda çarpışan insanların ("Döyüş"), asılmış insanın ("Epitafiya") və öz-özündən gizlənənin ("Gizlənc") daşıdığı məna-məzmun yükü həm də duyğulandırıcı və düşündürücü təsvir elementləri ilə ifadə olunduğundan bütövlükdə kompozisiyalar təsirli və yaddaqalandırlar.

Ayxan Rəsulovun yaradıcılığının ən önəmli xüsusiyyətlərindən biri də toxunduğu mövzulara özünəməxsus bədii münasibət bəsləməsi, onların hər birinin bədii həlli üçün məntiqli qrafik şərh tapa bilməsidir. Rəngkarlıqdan fərqli olaraq əsasən ağ-qara cizgilərlə fikrin əyaniləşdirildiyi qrafikada yığcamlığın əhatəli bədii tutuma çevrilməsi çox çətin olsa da, onun əsərlərində demək olar ki, əksər hallarda bunun cəlbedici nümunələrini görmək mümkündür.

Ayxan Rəsulovun müxtəlif mövzulara həsr olunmuş əsərlərinə rəğmən demək olar ki, ənənəviləşən məsələlərə, adiləşən hadisələrə də yeni və özünəməxsus münasibət göstərmək mümkündür. Təbii ki, bütün bunlar həm onun fərdi və fərqli müşahidə qabiliyyətinə malik olmasının, həm də gördüklərini mənalandıra bilməsinin nəticəsində baş verə bilər. Belə əsərlərin məkansızlığa və zamansızlığa qovuşması birmənalıdır. Qənaətimizcə, bu bir yaradıcı olaraq Ayxan Rəsulovun həyatda əldə edə biləcəyi ən böyük mənəvi qazancdır...



İçərişəhər



Nağıl motivi



Xaqan



Əkizlər bürcü



Kökdən düşmüş saz